Azərbaycan Milli Mətbuatı - 150

Quruculuq və qayıdış "Azərbaycan"ın səhifələrində tarixə çevrilir

"Qarabağ və Şərqi Zəngəzurdakı bütün yaşayış məntəqələri vahid baş plan əsasında qurulur. Bu bir nümunə olacaq... ...Hesab edirəm ki, Azərbaycan televiziyaları və digər mətbu orqanları orada gedən prosesləri kifayət qədər işıqlandırırlar. Əlbəttə, istərdim ki, daha da çox işıqlandırsınlar. Çünki orada hər gün nəsə dəyişir, hər gün nəsə tikilir, hər həftə keçmiş köçkünlər oraya qayıdırlar. Ona görə bizim mətbuat o bölgədə gedən proseslərlə nə qədər çox maraqlansa və bunu işıqlandırsa, o qədər də yaxşı olacaq".

Bu il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsi zamanı Prezident İlham Əliyev dövlətimizin Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirdiyi möhtəşəm quruculuq və bərpa işlərinin işıqlandırılmasının Azərbaycan mediasının qarşısında duran birnömrəli vəzifə olduğunu tövsiyə etdi.

Qarabağ və Şərqi Zəngəzura qayıdışı milli çağırış kimi xarakterizə edən dövlət başçısının bu tövsiyəsi hələ 2017-ci ildən - qayıdışın müjdəçisi Cocuq-Mərcanlıya köç karvanlarının üz tutduğu tarixdən müasir və müstəqil Azərbaycanın salnaməsinə çevrilən 107 yaşlı "Azərbaycan" qəzeti tərəfindən böyük həvəs, ruh yüksəkliyi və qürurla yerinə yetirilir.

"Azərbaycan" qəzetinin 14 iyun 2017-ci il tarixli nömrəsində dərc edilən "Bakıdan Şuşaya yol Cocuq Mərcanlıdan keçir" sərlövhəli məqalənin təkcə giriş hissəsinə nəzər yetirməklə doğma torpaq həsrətinin, ona qovuşmağın gətirdiyi xoşbəxtliyin yaşatdığı təsvirəgəlməz hissləri dərinliyinə qədər yaşamaq olur.

"Lələtəpə...

Cocuq Mərcanlı...

Bir zamanlar bu doğma toponimlərin adı çəkiləndə illərdir köksümüzdə gəzdirdiyimiz yaranın qaysağı qoparaq qəlbimizi göynədirdi. Vətən, yurd həsrətindən böyük, üzücü, çəkiləsi çətin olan dərd varmı görəsən bu dünyada?!

Qara günlərin ömrü az olar desələr də, düz 23 il çəkdi bu həsrət. Çəkildi qara buludlar bu torpaqların üzərindən... Yeni doğan günəşin üfüqləri təkcə Azərbaycana deyil, bütün dünyaya yayıldı. Qürur rəmzimizə çevrilən bu adlar həm də qəlbimizdə yanan ümid çırağına çevrildi..."

Qəzetimizin əməkdaşları Rəşad Cəfərli və Rəşad Baxşəliyevin hazırladıqları sözügedən reportajda fikirlərini öyrəndikləri Cocuq Mərcanlı sakinləri kəndin bərpası ilə Qarabağa qayıdışın təməlinin qoyulduğunu, Cocuq Mərcanlıda daha xoşbəxt olacaqlarını dilə gətirirlər.

Reportajlar quruculuq və qayıdışı möhtəşəmliyi ilə göz önünə sərir

Demək olar ki, oxucular "Azərbaycan"ın bütün nömrələrində Qarabağ və Şərqi Zəngəzurun quruculuğu, işğaldan qurtarılan ərazilərdə həyata keçirilən Böyük qayıdışa aid materiallarla tanış olurlar. "Azərbaycan"ın peşəkar jurnalistləri tərəfindən hazırlanan reportajlar tarixi yurdlarımızda həyata keçirilən quruculuq işlərini tam möhtəşəmliyi ilə göz önünə sərir. Mütəmadi olaraq o bölgələrdə ezamiyyətdə olan müxbirlərimizin 30 ildən sonra yurdlarına dönən keçmiş məcburi köçkünlərin təsvirəgəlməz hisslərinin sözlərlə ifadə olunduğu yazılarını duyğulanmadan oxumaq mümkün deyil. Bu yazıları oxuyanda dədəbaba torpağına qovuşan insanlarımızın nisgil, qübar, sevinc, bəxtəvərlik hisslərini eyni anda yaşadığını qəlbinlə duyursan.

Təkcə bu reportajların sonunda illərdir həsrətində olduğumuz "Bakı-Xocalı-Bakı", "Bakı-Şuşa-Bakı", "Bakı-Laçın-Bakı", "Bakı-Kəlbəcər-Bakı"... marşrutlarını görməyin özü dünyalara dəyər.

Qəzetin 11 iyun 2024-cü il tarixli sayında Rəşad Baxşəliyev və Elşən Qəniyevin imzaları ilə dərc olunan "İlham Əliyevin qurduğu yeni Xocalı" başlıqlı reportajda yazılır: "Bu gün Xocalı işğaldan azad olunmuş digər ərazilərimiz kimi əzəmətli tikinti meydançasını xatırladır. Bir vaxt bu torpaqlarda böyük soyqırımı acısını yaşamış Xocalı indi yeni siması ilə "tökülən qanımızın qisası alındı" deyir...

Bir zamanlar məhv olan arzular indi çiçək açıb, ümidlər doğmağa başlayıb. Bu şəhərin əzəli sakinləri yenidən evlərinin işıqlarını yandırırlar.

Xocalıya ilk köçən sakinlərdən biri Ceyran Əzizovadır. Bizi görən kimi qonaqpərvərliklə qarşılayır və əllərini Tanrıya açıb "Allaha min şükür olsun, ölmədik bu günü də gördük.Yatsam yuxuma girməzdi ki, başımıza gələn bu qədər müsibətdən, zülmdən, zillətdən sonra Xocalıda öz evimizdə qonaq qarşılayacağam. Həm də belə gözəl bir evdə..." deyir.

Adıçəkilən mülliflərin "Cəbrayılda yeni dövran, xoşbəxt həyat başlayıb", "Gəl sənə Laçınımı göstərim...", "Mehriban xanım ürəyimizdə elə bir saray qurub ki...", Rəşad Baxşəliyev və Elçin Cəfərovun "Qurtuluşun XOCALI ünvanı", Rəşad Baxşəliyevin "İlham Əliyevin "yaşıl Ağdam"ı" sərlövhəli reportajları Azərbaycanın quruculuq və qayıdış zəfərlərini bir daha parlaqlığı ilə nümayiş etdirir.

Rəşad Cəfərlinin "Quruculuğun Şuşa zirvəsi", "İlham Əliyevin qurduğu yeni Laçın", "Şuşa gündən-günə gözəlləşir" adlı reportajları, Rəşad Cəfərli və Elçin Cəfərovun "Əzəmətli quruculuq ünvanı", "Şuşaya Zəfər yolumuzu açan Hadrut", Vahid Məhərrəmovun "Qarabağın ağ günləri", "Zəfər yolu ilə Şuşaya doğru", "İlham Əliyev Xocalını gülüstana çevirir", Elşən Qəniyevin "Xocalı indi özünün azad və xoşbəxt günlərini yaşayır", "İşğaldan azad olunmuş ərazilərimiz geniş tikinti meydanına çevrilib" sərlövhəli reportajları da regionda həyata keçirilən tikinti və quruculuq işlərindən, 30 il düşmən tapdağında qalan yurdlarımıza yenidən həyatın qayıtmasından bəhs edir.

"Şuşa gündən-günə gözəlləşir" adlı reportajda yazılır: "Şuşaya səfərimiz şəhərin öz doğma sakinlərini qəbul etməsindən bir neçə gün əvvələ təsadüf etmişdi. Qala şəhərimiz nəhəng tikinti meydanını xatırladırdı. Şuşanın hansı səmtinə, hansı məhəlləsinə getsən, möhtəşəm quruculuq işlərinin həyata keçirildiyini görmək mümkündür: həm tarixi binalar bərpa olunur, həm şəhərin yeni infrastrukturu yaradılır, geri dönəcək şuşalılar üçün yeni evlər inşa edilir. 28 ildən artıq davam edən işğal dövründə ermənilərin şəhərdə törətdikləri vandallıqların bütün nəticələri sürətlə aradan qaldırılır".

Salam, ana torpaq, biz qayıtdıq!

"Azərbaycan" qəzetində Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı tikinti və quruculuq işlərinin, Böyük qayıdışın işıqlandırılmasında özləri də bu ərazilərdən olan keçmiş məcburi köçkün əməkdaşlarımızın məqalələri özünəməxsus yer tutur. Onların qələmə aldıqları yazılar sanki dil açıb adamla danışır, müəlliflərinin yaşadıqları ifadəsi mümkünsüz hiss və həyəcanları oxucuya ötürür. Oxucular da doğma torpağının hər dağı, dərəsi, meşəsi, çayı, aşırımı, daşı, kəsəyi, döngəsi, küçəsi üçün onilliklərdir burnunun ucu göynəyən, hönkürə-hönkürə "Biz qayıtdıq, Vətən" deyən keçmiş məcburi köçkün jurnalistlərimizə qoşularaq o doğma yurdları qarış-qarış gəzirlər. Bu yerlərin 30 il əvvəlki xoşbəxt həyatına, həsrət yüklü illərinə, yeni növrağına şahidlik edirlər. Xatirələrə dalırlar, qüssələnirlər, xoşbəxtliklə gülümsəyirlər...

Vahid Məhərrəmovun "Yurda keşik çəkən ərik ağacı", "Salam, tut ağacım, məni tanıdınmı?.." adlı reportajları da yurd nisgilinin sözlərlə naxış-naxış toxunan ifadələridir.

"Salam, tut ağacım, məni tanıdınmı?.. başlıqlı reportajda müəllif hüzn çökmüş hisslərini bu cür ifadə edib: "...Kəndimizin adı yazılan lövhənin yaxınlığında ayaq saxlayırıq. Əyilib torpağı öpürük. ...Torpağın doğma qoxusu ruhumuza sığal-tumar çəkir. Bu anlarda özümüzü dünyanın ən bəxtəvər insanı sanırıq.

Qəbiristanlığa ayaq qoyan kimi üzünü heç vaxt görmədiyim, səsini eşitmədiyim, nəfəsini duymadığım, böyüyəndə yalnız şəkillərinə baxdığım və həmişə "dədə" dediyim atamın qəbrini axtarıram.

Bax, bu da başdaşı xına bağlamış atam Məmmədqulunun məzarıdır. Başdaşına yazılmış yazıları, rəhmətə getdiyi tarixi oxuyuram. Atamın ölüm tarixi ilə mənim doğum tarixim eynidir.

Onun ölümündən bir ay sonra mən dünyaya göz açmışam".

Qəzetin məsul katibi Elçin Vəliyevin 26 oktyabr 2021-ci ildə dərc olunan "Xoş gəlmisiniz Zəngilana" adlı yazısına diqqət edək: "2021-ci il oktyabrın 20-si Zəngilan rayonunun işğaldan azad edildiyi günün birinci ildönümü idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məhz həmin gün Zəngilanda bizimlə - rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü. Bu haqda KİV - telekanallar, müxtəlif saytlar geniş və ətraflı məlumat versələr də, düşündüm ki, Prezidentlə 27 il yurdundan didərgin düşən zəngilanlıların görüşü unudulmaz hadisədir. Mən də uzun illərin nisgilini içində daşıyan bir insan kimi təəssüratlarımı bölüşməyə ehtiyac duydum".

Özümün də müəllifi olduğum Kəlbəcərdən hazırladığım "Bu dəfə Murovdan qalib kimi keçdik" sərlövhəli reportajda isə yazılır: "Tənha kəndlərdəki qapısı, pəncərəsi, tavanı, çardağı olmayan yarıuçuq evlər adamın ürəyini ağrıdır. Yamyaşıl mamır basmış divarları "ağlayır", hər gün daşlarının üstündən bir daş da qopub düşür. Küçələr, həyətlər, bağ-bağçalar hamısı bir-birinə qarışıb, bu yerlərdə insan ayağının açdığı bütün izlərin üstünü kol-kos, otələf örtüb. İstər-istəməz ürəyindən üzünü həmin tənha kəndlərə tutub səsin, avazın gəldikcə o uçuq evlərin sakinlərini haraylamaq keçir.

Amma elə Kəlbəcər ərazisinə ilk qədəm qoyduğumuz andan etibarən bu sərt təbiətli yerlərdə Azərbaycan dövlətinin dünya miqyasında görünməmiş nəhənglikdə həyata keçirdiyi quruculuq işlərinin şahidi olduqda ürəyin dağa dönür. Təkcə Murovdağın altı ilə çəkilən 12 kilometrə yaxın uzunluğa malik tunel bu bölgədə gerçəkləşdirilən şah əsər, möcüzənin özüdür desəm, heç bir pafosa, mübaliğəyə yer vermiş olmaram".

Vahid Məhərrəmov, Elçin Vəliyev, Dönməz Abbasovun müəllifi olduqları "Doğma ocağımıza uzanan yollar - nisgili sevincə dəyişən anlar" başlıqlı reportajda ana torpaqla illərdən sonra görüşün təsirli mənzərəsi gözlər önünə sərilir: "Dağıdılmış evlərə baxanda ovqatımız korlansa da, gördüyümüz quruculuq mənzərələrindən qəlbimiz iftixarla dolur. Yolun sol tərəfi ilə dəmir yolu xətti, sağ tərəfi ilə asfalt yol çəkilib. Çəkilən bu yollar qoşa qollar kimi irəli - üzü Qarabağa, Zəngəzura tərəf uzanır".

Cənnətməkan diyarımızın "Azərbaycan"da təsviri

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əksini tapan "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" qəbul edilib. Qarabağ və Şərqi Zəngəzurda quruculuğa start verilməsindən ötən müddət ərzində dövlət büdcəsinin əsas prioritetlərindən biri də Böyük qayıdışın həyata keçirilməsidir. Belə ki, 2020-ci ildən başlayaraq 2025-ci il də daxil olmaqla dövlət büdcəsindən bərpa-quruculuq işlərinə toplam 22 milyard manata yaxın, o cümlədən 2025-ci ildə 4 milyard manat vəsait ayrılıb. Bu hesaba işğaldan azad edilən torpaqlarımızın dirçəldilməsi bir gün də olsa səngimir. Çoxsaylı yaşayış məntəqələri salınan bu yerlərdə mühüm infrastruktur layihələri həyata keçirilir, kompleks işlər görülür. Bir sözlə, 30 il ərzində vəhşicəsinə dağıdılan ərazilərimiz abadlaşır, yenidən tikilən kənd və şəhərlərimizə mərhələli şəkildə Böyük qayıdış həyata keçirilir. Söz düşmüşkən qeyd edək ki, indiyə qədər işğaldan azad edilən ərazilərimizdəki 17 yaşayış məntəqəsinə 15 mindən çox keçmiş məcburi köçkün dönüb.

Qarabağ və Şərqi Zəngəzurda yaşanan quruculuq və qayıdış "Azərbaycan" qəzetində silsilə məqalələrdə geniş şəkildə işıqlandırılır.

Bəxtiyar Sadıqovun "Xarabalıqlardan dirçəldilən Ağdam", İradə Əliyevanın "İlham Əliyev xalqımızın qurucu və sülhsevər olduğunu dünyaya göstərir", Flora Sadıqovanın "Dağ çayları işıq saçır", Züleyxa Əliyevanın "Sənayeləşən Qarabağ", Əsmər Qardaşxanovanın "2022-ci il - möhtəşəm quruculuq dövrü", Rəhman Salmanlının "İşğaldan azad olunmuş ərazilərdə quruculuq işləri məmnunluq doğurur", Ülkər Xaspoladovanın "Yurda qayıdışın təntənəsi", Zöhrə Fərəcovanın "İşğaldan azad olunmuş rayonlarda Azərbaycanın mədəni irsi bərpa olunur", Rüstəm Kamalın "Qarabağda geniş quruculuq işlərinə ən zəruri infrastrukturun yaradılmasından başlanıb", Rizvan Cəfərovun "İşğaldan azad olunmuş ərazidə ilk beynəlxalq yarış" sərlövhəli yazıları bu ərazilərimizdə görülən misilsiz quruculuq işlərini, gerçəkləşdirilən qayıdışı, bir sözlə, bu bölgələrimizin dirçəldildiyini əks etdirən məqalələrdən sadəcə bəziləridir. Onların sırasına "Allahın evi Ağdam məscidi", "Ağalıda həyat qaynayır", "Qarabağ və Şərqi Zəngəzur kreativ sənaye zonasına çevrilir", "Böyük zəfərin işıqlı davamı", "Keçmiş məcburi köçkünlər xilaskarı doğma evlərində qarşılayırlar", "Tikirəm ki izim qala", "Bütün yollar Qarabağa aparır", "Qarabağ və Şərqi Zəngəzur dirçəlir, Böyük qayıdış sürətlənir", "Tarixi bərpa etmək missiyası", "Qarabağ yolu" kimi məqalələri də əlavə etsək, böyük bir siyahı olar, o da sonacan yox.

"Mən müharibə başa çatandan dərhal sonra demişəm ki, biz Qarabağı cənnətə çevirəcəyik. Əslində, onsuz da bura öz təbii quruluşuna, gözəlliyinə görə cənnətdir. Amma müasir infrastruktur, yaşayış yerləri, iş yerləri, rahatlıq - bura, doğrudan da, dünyanın ən gözəl yerlərindən birinə çevriləcək". Prezident İlham Əliyevin bəyan etdiyi kimi, işğaldan azad edilən ərazilərimizdə həyata keçirilən möhtəşəm bərpa və quruculuq işləri bu yerlərə səfər edən istər yerli, istərsə də əcnəbi qonaqlar olsun, hər kəsi heyran qoyur.

Və gündən-günə gözəlləşən, cənnətməkana çevrilən Qarabağ və Şərqi Zəngəzurun yeni növrağı müasir Azərbaycanın salnaməsini yazan 107 yaşlı "Azərbaycan" qəzetinin səhifələrində gələcək nəsillər üçün tarixə çevrilir.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"